"TƏSDİQ EDİRƏM"

DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN

BAŞÇISI ____________ Ə.M.ABIYEV

«_27_» ___12___ 2021-ci il.

**"Açıq Hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın 2022-ci ildə Daşkəsən rayonu üzrə yerinə yetirilməsi ilə əlaqədar**

**İŞ PLANI**

| № | Tədbirin adı | Qiymətləndirmə indikatorları | İcra / Tövsiyə | İcra müddəti |
|---|---|---|---|---|
| **1. Korrupsiyanın qarşısının alınması və dövlət orqanlarının fəaliyyətində şəffaflığın gücləndirilməsi sahəsində tədbirlər** | | | | |
| 1. | Korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları ilə bağlı təlimlər keçirilməsi üçün bu sahədə fəaliyyət göstərən ixtisaslaşmış qeyri-hökumət təşkilatlarına dəstək verilməsi (fəaliyyət planındakı sıra nömrəsi 1.6) | Dəstəklənmiş layihələr | İcraçılar: Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət adından yaradılmış publik hüquqi şəxslər | 2022 |
| 2. | Dövlət qurumları tərəfindən etik davranış məsələləri ilə bağlı aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və buna görə tətbiq edilmiş intizam tənbehi tədbirləri barədə illik hesabatların hazırlanması və bu barədə məlumatların açıqlanması (1.9) | Dövlət qurumları tərəfindən etik davranış məsələləri ilə bağlı görülmüş işlər barədə məlumatların rəsmi internet səhifələrində yerləşdirilməsi | İcraçılar: Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət adından yaradılmış publik hüquqi şəxslər | 2022 |
| **4. Dövlət xidmətlərinin təkmilləşdirilməsi sahəsində tədbirlər** | | | | |

| | | | | |
|---|---|---|---|---|
| 3. | Dövlət xidmətlərinin göstərilməsində səmərəliliyin artırılması məqsədilə həmin xidmətlər üçün tələb olunan sənədləri elektron qaydada əldə etmək, habelə dövlət orqanlarına gəlmədən həmin sənədləri elektron formada təqdim etmək imkanlarının genişləndirilməsi (4.1) | Dövlət xidmətlərinin göstərilməsi ilə əlaqədar elektron qaydada əldə olunan və təqdim edilən sənədlərin sayı | İcraçılar: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi, mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət adından yaradılan publik hüquqi şəxslər | 2022 |
| 4. | Yerli icra hakimiyyəti orqanlarının vətəndaşların müraciətlərini elektron qaydada qəbul etməsi işinin təkmilləşdirilməsi, habelə yerli icra hakimiyyəti orqanlarının göstərdikləri elektron xidmətlərin sayının artırılması üçün tədbirlər görülməsi (4.3) | Yerli icra hakimiyyəti orqanları tərəfindən göstərilən yeni elektron xidmətlərin sayı | İcraçılar: Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, yerli icra hakimiyyəti orqanları | 2022 |
| **5. Vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin genişləndirilməsi, ictimai nəzarətin və ictimai iştirakçılığın artırılması sahəsində tədbirlər** | | | | |
| 5. | Dövlət orqanlarında kollegial qərarların qəbulu prosedurlarında, dövlət komissiyaları və işçi qruplarda vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının iştirakının və təmsilçiliyinin genişləndirilməsi (5.4) | Qeyri-hökumət təşkilatlarının iştirakının genişləndirilməsi ilə bağlı hazırlanmış təkliflər, qeyri-hökumət təşkilatlarının iştirakının təmin edildiyi iclasların, işçi qrupları və komissiyaların sayı | İcraçılar: Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, mərkəzi və yerli icra hakimiyyəti orqanları<br><br>Tövsiyə edilir: Milli Məclis | 2022 |
| 6. | İctimai şuraların əhəmiyyətinin artırılması, dövlət orqanlarında yaradılmış ictimai şuraların sayının çoxaldılması, şuralarda müzakirə edilən məsələlərin əhatə dairəsinin genişləndirilməsi, ictimai şuraların fəaliyyəti ilə bağlı maarifləndirmə və təbliğat işlərinin gücləndirilməsi və dövlət qurumlarının rəsmi internet resurslarında əks etdirilməsi (5.5) | İctimai şuraların fəaliyyəti ilə bağlı məlumatlar | İcraçılar: mərkəzi və yerli icra hakimiyyət orqanları, dövlət adından yaradılmış publik hüquqi şəxslər | 2022 |

| | | | | |
|---|---|---|---|---|
| 7. | Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması çərçivəsində mütəmadi müzakirələrin keçirilməsi və Platformanın fəaliyyətinin dəstəklənməsi (5.6) | Platformanın fəaliyyətinin təmin edilməsi üzrə tədbirlər | İcraçılar: Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, mərkəzi və yerli icra hakimiyyət orqanları, dövlət adından yaradılmış publik hüquqi şəxslər | 2022 |
| **6. İnformasiya əldə edilməsinin təmin olunması sahəsində tədbirlər** | | | | |
| 8. | Dövlət qurumlarının rəsmi internet informasiya ehtiyatlarında “Açıq məlumatlar” bölməsinin yaradılması (6.3) | Müvafiq bölmənin yaradılması ilə bağlı tədbirlər | İcraçılar: mərkəzi və yerli icra hakimiyyəti orqanları | 2022 |